"AllAllFinance"
Açıq Səhmdar Cəmiyyəti

Hər birinin nominal dəyəri 410 (dörd yüz on) manat olan 500 (beş yüz) ədəd adi, sənədsiz, adlı səhmlərin

EMİSSİYA PROSPEKTİ

Bakı-2026

Qeyd: Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "AllAllFinance" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 410 (dörd yüz on) manat olan 500 (beş yüz) ədəd adi, adlı, sənədsiz, səhmlərin Emissiya Prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

"AllAllFinance" Açıq Səhmdar Cəmiyyətinin

Direktoru:

Dünyamaliyev Səbuhi Elxan oğlu

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AllAllFinance OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

Tarix: 5 Oktyabr 2026-cı il

"AllAllFinance" Açıq Səhmdar Cəmiyyətinin

Baş Mühasib:

Soltanov Rəsad Rəşid oğlu

Tarix: 5 Oktyabr 2026-cı il

MÜNDƏRİCAT

BƏYANAT 2

1. Xəbərdarlıq 4
2. Emitent və zamin (olduqda) haqqında məlumat 4
3. Qiymətli kağızlar haqqında məlumat 7
4. Risk faktorları 8
5. Təklif 9

SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR 13

6. Emitentin auditorları barədə məlumat 13
7. Seçilmiş maliyyə məlumatı 13
8. Emitent barədə məlumat 13
9. Emitentin biznesinin icmalı 14
10. Digər təşkilatlarda iştirak 16
11. Emitentin əsas vəsaitləri 16
12. Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı 16
13. Emitentin kapital resursları 18
14. Tədqiqatlar, lisenziyalar və patentlər 18
15. Tendensiyalar barədə məlumat 18
16. Gəlir proqnozu 19
17. Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları 19
18. Emitentin idarəedilməsində iştirak edən şəxslərin mükafatlandırılması, imtiyazları və digər kompensasiyaları 20
19. İdarə heyətinin işgüzar praktikası 20
20. Emitentin işçi heyəti 20
21. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar 21
22. Aidiyyəti şəxslərlə əməliyyatlar. 21
23. Emitentin maliyyə məlumatları 22
24. Emitent haqqında əlavə məlumat 28

SƏHMLƏR HAQQINDA TƏLƏB OLUNAN MƏLUMAT 30

25. Əsas məlumat 30
26. Təklif edilən səhmlər haqqında məlumat 31
27. Təklifin şərtləri 33
28. Ticarətə buraxılma və onun tənzimlənməsi 36
29. Təklif edilən səhmlərin mülkiyyətçiləri haqqında məlumat 37
30. Emissiya xərci 37
31. Payın azalası 38

1.Xəbərdarlıq

1.1. Bu sənəd Emissiya prospektinin giriş hissəsidir.

1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

XÜLASƏ

2.Emitent haqqında məlumat

2.1.Emitentin tam adı:

"AllAllFinance" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent" və ya "Cəmiyyət").

2.2.Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:

AZ1075, Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Molla Cümə küçəsi, 46B; Açıq Səhmdar Cəmiyyəti; Azərbaycan Respublikası.

2.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin təhlili:

Emitentin fəaliyyət sahəsi və coğrafi əhatəsi:

Emitent Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə maliyyə və kollektor (borcların yığılması) sektorunda fəaliyyət göstərir. Şirkətin əsas fəaliyyət istiqamətlərinə banklardan və digər maliyyə institutlarından tələb hüquqlarının satın alınması yolu ilə alınmış problemli kredit portfellərinin əldə edilməsi, həmin borclar üzrə yığım prosesinin həyata keçirilməsi, müştərilərə kreditlərin verilməsi və üçüncü tərəflərə debitor borcların yığılması üzrə xidmətlərin göstərilməsi daxildir. Coğrafi əhatə baxımından Emitent tam olaraq Azərbaycan Respublikasının daxili bazarında fəaliyyət göstərir. Şirkətin hüquqi ünvanı Bakı şəhərində yerləşir və xarici ölkələrdə filial və ya nümayəndəlikləri yoxdur.

Rəqabət mühiti:

Emitent Azərbaycanın maliyyə sektorunda problemli borcların idarə olunması, debitor borcların yığılması (kollektor xidmətləri), eləcə də kreditləşmə bazarında fəaliyyət göstərən digər BOKT-lər, kollektor şirkətləri və banklarla rəqabət aparır. Emitentin əsas rəqabət üstünlüyü problemli kredit portfellərinin çevik və effektiv qiymətləndirilməsi, inkişaf etmiş IT infrastrukturundan və analitik sistemlərdən istifadə etməklə yığım prosesini səmərəli idarə etməsi, həmçinin geniş işçi heyətinə (2025-ci il üzrə 196 nəfər) malik olmasıdır. Portfellərin satınalma şərtləri, tətbiq edilən faiz dərəcələri, borclulara sunulan güzəşt proqramları və yığım xidmətlərinin operativliyi rəqabət mühitinin əsas xüsusiyyətlərini təşkil edir. Emitentin bazar payı idarə olunan və satın alınan problemli kredit portfelinin həcmi (31 dekabr 2025-ci il tarixinə qalıq balans dəyəri 6 809 142 manat, il ərzində əldə edilmiş portfel 8 227 676 manat), yığılan pul vəsaitlərinin məbləği (2025-ci il üzrə 11 930 279 manat) və xidmət göstərdiyi kontragentlərin sayı ilə müəyyən edilir.

Ümumi gəlirlərin qruplaşdırılması:

Son bir maliyyə ili ərzində Emitentin faiz gəlirləri aşağıdakı kimi olmuşdur:

Maliyyə ili	**Faiz gəlirləri (Manat)**
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	10 994 011
Fəaliyyətə başlama tarixindən 31 dekabr 2024-ci il tarixinədək	15 455

2.4.Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:

Maliyyə sektoru və borcların idarə olunması (kollektor) bazarının fəaliyyəti makroiqtisadi, tənzimləyici, texnoloji və sosial amillərin təsirinə məruz qalır. Emitentin əsas fəaliyyəti banklardan və maliyyə institutlarından tələb hüquqlarının satın alınması (POCI aktivləri) və bu borcların səmərəli yığılmasından ibarət olduğu üçün aşağıdakı tendensiyalar Şirkətin əməliyyatlarına birbaşa təsir göstərir:

Rəqəmsal transformasiya və yığım kanallarının avtomatlaşdırılması: Maliyyə və yığım sektorunda rəqəmsal texnologiyaların, skorinq sistemlərinin və sürətli ödəniş inteqrasiyalarının tətbiqi genişlənir. Şirkət "CibPay" MMC kimi fintex təşkilatı vasitəsilə yığım əməliyyatlarını və kreditləşmə prosesini avtomatlaşdırmış və İT/innovasiya xərclərini artırmışdır (2025-ci ildə 79 413 manat). Rəqəmsal kanalların inkişafı borclularla əlaqənin operativliyini və yığım səmərəliliyini artırır.

Borclulara tətbiq edilən güzəşt proqramları və sosial məsuliyyət: Problemli borcların idarə edilməsində borcluların ödəniş qabiliyyətinə uyğun restrukturizasiya olunması əsas tələblərdəndir. Emitent yığım prosesində borclulara müxtəlif güzəştlər təqdim edir. 2025-ci il ərzində portfel üzrə verilmiş 300 709 manat məbləğində güzəşt (və inzibati xərclərdə əks olunan 308 186 manatlıq güzəştlər) yığım həcmini və müştəri loyallığını artıran əsas amillərdən olmuşdur.

Tənzimləyici tələblərin artması və hüquqi çərçivə: Maliyyə bazarlarında şəffaflığın artırılması və MHBS standartlarına uyğun hesabatlılıq tələbləri sərtləşir. Şirkət əməliyyatlarını MHBS 9 (POCI alətləri) standartlarına uyğunlaşdırmış, məhkəmə-yığım və hüquqi təminat tədbirləri çərçivəsində 924 874 manat hüquqi xidmət xərci çəkmişdir. Bu tələblər əməliyyat xərclərini artırsa da, bazarda etimadı və hüquqi dayanıqlılığı möhkəmləndirir.

Makroiqtisadi şərtlər və borc portfellərinin keyfiyyəti: İnflyasiya və iqtisadi fəallıq fiziki şəxslərin borc ödəmə qabiliyyətinə birbaşa təsir edir. Ölkədə milli valyutanın sabitliyinin qorunması satın alınan portfellərdən pul daxilolmalarını müsbət dəstəkləyir. 2025-ci ildə 8 227 676 manatlıq yeni portfelin əldə edilməsi qarşılığında 11 930 279 manat məbləğində nağd yığımın həyata keçirilməsi və portfel üzrə 10 812 454 manat faiz gəlirinin formalaşması əlverişli əməliyyat mühitinin göstəricisidir.

Bankların problemli aktivləri təmizləmə tendensiyası: Azərbaycanın bank və BOKT sektorunda balansda olan portfel keyfiyyətini artırmaq üçün problemli kreditlərin kənar ixtisaslaşmış təşkilatlara satılması (tələb hüquqlarının güzəşt edilməsi) tendensiyası sürətlənir. Bu meyil Emitent üçün daha geniş həcmdə portfel əldə etmək və biznes miqyasını böyütmək imkanı yaradır.

Kibertəhlükəsizlik və fərdi məlumatların qorunması: Böyük həcmdə fərdi borc məlumatları ilə işləyən təşkilatlar üçün kibertəhlükəsizlik riskləri böyük önəm kəsb edir. Emitent borcluların məlumatlarının mühafizəsi və İT sistemlərinin təhlükəsizliyi üçün müvafiq texnoloji standartları tətbiq edir.

2.5.Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri: Belə bir mövqe mövcud deyil.

2.6.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
Rüstəmov Mədəd Nadir oğlu	Azərbaycan Respublikası	4 ədəd səhm	40%
Aydınov Camal İsax oğlu	Azərbaycan Respublikası	4 ədəd səhm	40%
Səlimov Rəşad Mais oğlu	Azərbaycan Respublikası	2 ədəd səhm	20%

2.7.Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat:

Səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm — bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

2.8.Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
Rüstəmov Mədəd Nadir oğlu	Azərbaycan Respublikası	4 ədəd səhm	40%
Aydınov Camal İsax oğlu	Azərbaycan Respublikası	4 ədəd səhm	40%
Səlimov Rəşad Mais oğlu	Azərbaycan Respublikası	2 ədəd səhm	20%

Mühüm iştirak payının sahibi Emitentə nəzarəti Emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) səhmə malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır. Cəmiyyətin hər üç iştirakçısı mühüm iştirak payına sahibdirlər və təşkilatın fəaliyyətinə nəzarət etmək imkanına malikdirlər.

2.9.Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır:

Hazırkı maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri Emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır. Şirkət 10.09.2024-cü il tarixində qeydiyyata alındığı üçün son 3 ilin maliyyə hesabatları mövcud deyildir. 2024-cü ilin maliyyə hesabatları şirkətin təsis edildiyi tarixdən ilin sonunadək olan dövrü, 2025-ci ilin maliyyə hesabatları isə tam təqvim ilini əhatə edir.

Açıqlama (Azərbaycan manatı ilə)	Fəaliyyətə başlama tarixindən 31.12.2024 (Audit olunmuş)	31.12.2025 (Audit olunmuş)
Cəmi aktivlər	320 890	13 006 579
Cəmi öhdəliklər	351 308	7 286 566
Cəmi kapital	(30 418)	5 720 013
Pul vəsaitləri və onların ekvivalentləri	3 890	260 756
Alınmış problemli kredit portfeli	-	6 809 142
Cari ilin mənfəəti (zərəri)	(30 518)	5 593 381

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2025 (Audit olunmamış)	30.06.2026 (Audit olunmamış)
Cəmi aktivlər	6 344 480	13 406 835
Cəmi öhdəliklər	3 394 798	5 009 023
Cəmi kapital	2 949 682	8 397 812
Pul vəsaitləri və onların ekvivalentləri	19 585	197 081
Alınmış problemli kredit portfeli	4 132 535	7 546 616
Cari ilin mənfəəti (zərəri)	2 823 050	3 218 464

2.10.Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd:

Seçilmiş proforma maliyyə məlumatı mövcud deyil.

2.11.Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd: Gəlir proqnozu mövcud deyil.

2.12.Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:

Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə bitən il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış maliyyə hesabatlarının kənar audit yoxlaması müstəqil audit şirkəti olan "Nexia Azerbaijan" (Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü) tərəfindən aparılmışdır. Müstəqil auditor rəyinə əsasən, Cəmiyyətin maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini MHBS-a uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün və ədalətli əks etdirir (müsbət/qeyd-şərtsiz auditor rəyi verilmişdir). Audit çərçivəsində Maliyyə vəziyyəti haqqında hesabat, Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat, Kapitalda dəyişikliklər haqqında hesabat və Pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar, habelə mühüm mühasibat uçotu prinsipləri və izahedici qeydlər təhlil edilmişdir. Auditor rəyində Şirkətin fəaliyyətinin davamlılığına və ya hesabat göstəricilərinə dair hər hansı şərtli qeyd, məhdudiyyət və ya mühüm qeyri-müəyyənlik göstərilməmişdir

Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə bitən il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış maliyyə hesabatlarının kənar audit yoxlaması müstəqil audit şirkəti olan "Nexia Azerbaijan" (Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü) tərəfindən aparılmışdır. Müstəqil auditor rəyinə əsasən, Cəmiyyətin maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə Şirkətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini MHBS-a uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün və ədalətli əks etdirir (müsbət/qeyd-şərtsiz auditor rəyi verilmişdir).

2.13.Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat:

Dövriyyə kapitalının Emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent kredit və istiqraz emissiyası vasitəsilə vəsait cəlb edilməsi imkanına malikdir.

3.Qiymətli kağızlar haqqında məlumat

3.1.Səhmlərin növü və qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün):

adi, adlı, sənədsiz səhmlər; AZ1001028666.

3.2.Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri.

Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:

Emitent tərəfindən yerləşdirilməmiş və ya geri alınmış hər hansı səhm mövcud deyil. Emitentin törəmə müəssisələrinə məxsus səhmləri mövcud deyil.

3.3.Səhmlərlə təsbit olunan hüquqlar:

- Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və Cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- Bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- Ümumi Yığıncağın çağırılmasını tələb etmək;
- Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq.

• Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

3.4.Səhmlərlə təsbit olunan məhdudiyyətlər: Səhmlərlə təsbit olunan məhdudiyyətlər mövcud deyil.

3.5.Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:

Səhmlərin kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (bundan sonra "BFB") ticarət platformasında abunə yazılışı üsulu ilə həyata keçiriləcəkdir. Səhmlərin listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların ticarətə qəbulu, listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• Dövlət qiymətli kağızları bazarı;
• Korporativ qiymətli kağızlar bazarı;
• Törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

3.6.Emitentin dividend siyasətinin təsviri:

Hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Səhmdar Cəmiyyətin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Səhmdar Cəmiyyəti nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Səhmdar Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Adi səhm üzrə dividend Emitentin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

Cəmiyyət tərəfindən səhmdarlara dividend ödənilməmişdir.

4.Risk Faktorları

4.1.Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

Maliyyə sabitliyi və borc öhdəliyi riski: Şirkətin gələcək maliyyə vəziyyətində baş verə biləcək

mənfi dəyişikliklərin səhmlərin dəyərinə təsiri riski.

Hesablaşma və kontragent riski: hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri.

Likvidlik riski: Aktivlərin pul vəsaitinə çevrilmə müddətinin öhdəliklərin ödəniş vaxtı ilə tam üst-üstə düşməməsi . Həmçinin qiymətli kağızlar üzrə aktiv təkrar bazarın mövcud olmaması riski.

İnflyasiya riski: İnflyasiya nəticəsində pulun alıcılıq qabiliyyətinin düşməsi və borcluların real gəlirlərinin azalması riski.

Valyuta riski: valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

Tənzimləmə və hüquqi risklər: Vergi, Mərkəzi Bank tənzimləmələri və ya borcların yığılması (kollektor) qanunvericiliyində baş verə biləcək dəyişikliklərin təsiri riski.

Təbii və fors-major risklər: Təbii fəlakətlər və fors-major hadisələr nəticəsində iqtisadi fəallığın və yığım prosesinin axsaması riski.

Dividend siyasəti riski: Səhmdarlara dividend ödənilməsinə əvvəlcədən zəmanət verilməməsi və dividend ödənişlərinin emitentin maliyyə nəticələrindən, mənfəətindən və dividend siyasətindən asılı olması riski.

Qiymətli kağızlar bazarının vəziyyəti ilə bağlı risk: Gələcəkdə qiymətli kağızlar bazarında, iqtisadi şəraitdə və investorların davranışında baş verə biləcək dəyişikliklərin qiymətli kağızların bazar qiymətinə mənfi təsir göstərməsi riski.

4.2.Emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları:

• Kredit riski (POCI (Alınmış və ya yaradılarkən dəyərsizləşmiş (kredit)) aktivləri üzrə yığım riski): Satın alınmış problemli kredit portfelindəki borcalanların öhdəliklərini vaxtında icra edə bilməməsi, inflyasiya və işsizlik kimi makroiqtisadi şəraitin pisləşməsi, eləcə də portfelin fiziki şəxslər sektoru üzrə konsentrasiyası yığım daxilolmalarının azalması riskini yaradır.

• Likvidlik riski: Monetar aktivlərin pul vəsaitinə çevrilmə müddətinin öhdəliklərin ödəniş vaxtı ilə tam üst-üstə düşməməsi riskidir. Aktivlərin böyük hissəsinin problemli portfeldə və verilmiş borclarda cəmləşməsi likvidliyin birbaşa yığım tempindən və daxilolmalardan asılı olmasına səbəb olur.

• Məhkəmə və icra prosesləri riski: Problemli kredit portfeli ilə işləyən emitent üçün ən böyük risklərdən biri məhkəmə və icra proseslərinin uzanmasıdır. Məhkəmə instansiyalarında və icra mərhələsində yarana bilən ləngimələr daxilolmaların vaxtında təmin edilməsinə mənfi təsir göstərə bilər.

• Faiz dərəcəsi riski: Bazar faiz dərəcələrinin mənfi dəyişməsi nəticəsində cəlb edilmiş borc vəsaitləri üzrə faiz xərclərinin artması və ya problemli aktivlər üzrə tətbiq edilən effektiv faiz dərəcəsi ilə hesablanan gəlirlərin azalması riskidir.

• Əməliyyat riski: Geniş işçi heyəti və vasitəçi ödəniş sistemləri vasitəsilə həyata keçirilən yığım proseslərində daxili xətalar, insan faktorundan sui-istifadə halları, İT sistemlərində nasazlıqlar və kibertəhlükəsizlik pozuntuları nəticəsində yaranan itki riskidir.

• Tənzimləmə və uyğunluq riski: Vergi qanunvericiliyi, maliyyə standartları və borcların yığılması (kollektor) fəaliyyətini tənzimləyən hüquqi aktların dəyişməsi, yeni şəffaflıq və hesabatlılıq tələblərinə uyğunlaşma zamanı əməliyyat və hüquq xərclərinin artması riskidir.

• Valyuta riski: Əməliyyatlar milli valyutada aparılsa da, ölkədə baş verə biləcək kəskin məzənnə dəyişiklikləri yerli valyutada gəlir əldə edən borcalanların öhdəliklərini icra etmək qabiliyyətini dolayı yolla zəiflədə bilər.

• Rəqabət riski: Problemli borc portfellərinin satın alınması və yığılması bazarında digər BOKT-lər, kollektor şirkətləri və banklarla rəqabət şəraitində portfel satınalma qiymətlərinin yüksəlməsi və ya daha əlverişli güzəşt şərtlərinin təklif edilməsi məcburiyyəti riski.

• İqlim və ətraf mühit riskləri: İqlim dəyişikliyi və təbii fəlakətlərin ölkə iqtisadiyyatına və nəticədə fiziki şəxs olan borcalanların ümumi ödəmə qabiliyyətinə mənfi təsiri riski.

5.Təklif

5.1.Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis

məbləği:

BFB tərəfindən qiymətli kağızların yerləşdirilməsi üzrə xidmətlərin göstərilməsinə görə Emitent tərəfindən ödənilən xidmət haqqı – səhmlərin məcmu nominal dəyərinin 0.05%-i (minimum 0.5 manat, maksimum 500 manat) – 205 000*0.05%=102.5 manat;

BFB tərəfindən qiymətli kağızların listinqə salınılması üzrə xidmətlərin göstərilməsinə görə xidmət haqqı – illik kapitalizasiyaya əsasən 0.01% (minimum 2000 manat, maksimum 20 000 manat) – 2 000 manat;

BFB tərəfindən səhmlərin ilk dəfə ticarətə qəbula icazə verilməsi üzrə xidmət haqqı – 2 500 manat;

BFB tərəfindən qiymətli kağızların ilk dəfə listinqə salınılması xidmətinin göstərilməsinə görə ilkin listinq haqqı – 5 000 manat;

MDM (bundan sonra "MDM") tərəfindən qiymətli kağızların saxlanması üzrə xidmətlərin göstərilməsinə görə Emitent tərəfindən ödənilən xidmət haqqı – səhmlərin məcmu nominal dəyərinin 0.02%-i (minimum 50 manat, maksimum 5 000 manat) – 50 manat;

MDM tərəfindən qiymətli kağızların mülkiyyətçilərinin reyestrinin aparılması üzrə Emitentlərə xidmətlərin göstərilməsinə görə xidmət haqqı - səhmlərin məcmu nominal dəyərinin 0.02 %-i – (minimum 50 manat, maksimum 5000 manat) – 50 manat;

Emissiya prospektinin qeydiyyata alınması ilə bağlı dövlət rüsumu – 1200 manat.

Səhmlərin yerləşdirilməsinə görə komissiya Emitent ilə Anderrayter arasında bağlanılmış müqaviləyə əsasən müəyyənləşdiriləcəkdir.

Vəsaitin emitentə köçürülməsi zamanı Troni İnvestisiya Şirkətinin agent bankı olan Azər-Türk Bank tərəfindən vəsaitin 0,1%-i məbləğində (minimum 1 manat, maksimum 50 manat) komissiya tutulur. Lakin bu komissiya əlavə hesab fakturada qeyd olunduğu üçün cəlb olunan xalis məbləğə hər hansı təsiri yoxdur.

Cəlb olunacaq vəsaitlərin xalis məbləği 194 097.50 manat təşkil edəcək.

5.2.Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği:

Təklifin səbəbi nizamnamə kapitalının artırılmasıdır. Əldə olunmuş gəlir Emitentin dövriyyə kapitalının artırılmasına yönəldiləcəkdir. Cəlb olunacaq vəsaitlərin xalis məbləği – 194 097.50 manat təşkil edəcək.

5.3.Təklifin şərtlərinin təsviri:

Emissiya edilən səhmlər, hər birinin nominal dəyəri 410 (dörd yüz on) manat olan 500 (beş yüz) ədəd adi, adlı, sənədsiz səhmlərdən ibarətdir. Hər bir səhmin abunə yazılışının qiyməti 410 (dörd yüz on) manatdır. Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin Anderrayteri İŞ-08 nömrəli, 24.12.2021-ci il tarixli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya şirkəti" QSC tərəfindən BFB-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə Anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) aydan çox olmamaq şərtilə davam edəcəkdir. Abunə yazılışı başlanması və başa çatma tarixləri Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılımış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü davam edəcək.

Cəmiyyətin mövcud səhmdarları öz payına mütənasib qaydada emissiya edilən səhmləri almaqda üstünlük hüququna malikdir.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Səhmlərə abunə yazılışı investorlar tərəfindən sifarişin Anderrayterə təqdim etməklə həyata keçirilir. Əgər Emissiya prospektində və ya emissiya haqqında qərarda ayrı qayda nəzərdə tutulmayıbsa investorlar abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra onların geri

çağırılmasını tələb edə bilməzlər. Yerləşdirmə müddəti ərzində investorlar səhmlərin alınması üçün pul vəsaitlərini "Azər-Türk Bank" ASC-də Emitentin adına açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. Səhmlərin dəyəri pul şəklində ödənməlidir. Səhmdarlar səhmdar cəmiyyətinin səhmlərini almaqda üstünlük hüququndan istifadə etməklə əldə etdikdə, həmin səhmlərin cəmiyyətin nizamnamə kapitalında səhmdarların malik olduqları paya mütənasib şəkildə yerləşdirilməsi Mərkəzi Depozitar və Anderrayter tərəfindən yoxlanılır. MDM səhmlərin dəyəri investorlar tərəfindən ödənilməsi haqqında məlumatları müvafiq bankdan aldıqdan sonra növbəti gün ərzində səhmləri investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.
Məlumatlar Bakı Fond Birjasının (bfb.az), anderrayter qismində çıxış edən Troni İnvestisiya Şirkətinin (troni.az) və emitentin (allallfinance.az) rəsmi internet səhifələrində, habelə mediada dərc olunacaq.

5.4.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş investisiya qiymətli kağızlarının ticarətə qəbulu, listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə səhmlərin ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.
BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:
• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Milli Depozit Mərkəzi.

MDM "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:
• qiymətli kağızların saxlanması və uçotunun aparılması;
• qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

Anderrayter.

Emitentin yeni buraxılacaq səhmlərinin öhdəlik götürmədən anderraytinqi və yerləşdirilməsi İŞ-08 nömrəli, 24.12.2021-ci il tarixli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə Emitentdən xidmət haqqı tutacaqdır. "Troni İnvestisiya Şirkəti" QSC bu emissiyanın Anderrayteri kimi Emitentin bütün satış sifarişlərini abunə yazılışı zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə səhmlərin yerləşdirilməsi xidmətlərini göstərir. Emitentin səhmlərinin anderraytinqi və yerləşdirilməsi prosesində "Troni İnvestisiya Şirkəti" QSC-nin marağı kommersiya xarakterlidir.
Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında Emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar səhmləri depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və Anderrayter isə səhmlər yerləşdirildikcə Emitentdən və investorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

5.5.Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti:

Təklif edilən səhmlərin mülkiyyətçiləri mövcud deyildir.

5.6.Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə):

Mövcud səhm mülkiyyətçiləri	Vətəndaşlıq	Mövcud səhmdarlar öz üstünlük hüququndan istifadə etmədiyi təqdirdə nizamnamə kapitalında payları aşağıdakı qaydada olacaqdır:	Mövcud səhmdar öz üstünlük hüququndan istifadə etdiyi təqdirdə nizamnamə kapitalında payları aşağıdakı qaydada olacaqdır:
Rüstəmov Mədəd Nadir oğlu	Azərbaycanlı	4 ədəd səhm; 0.784313 %	204 ədəd səhm; 40.00 %
Aydınov Camal İsax oğlu	Azərbaycanlı	4 ədəd səhm; 0.784313 %	204 ədəd səhm; 40.00 %
Səlimov Rəşad Mais oğlu	Azərbaycanlı	2 ədəd səhm; 0.392156%	102 ədəd səhm; 20.00 %

5.7.Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

Vergilər:

Bu hal Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmin Məcəllənin 122.1-ci maddəsinə əsasən, rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur. 122.2-ci maddəyə əsasən, dividendlərin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən 122.1-ci maddəyə uyğun olaraq vergi tutulmuşdursa, həmin gəlirdən bir daha vergi tutulmur və bu gəlir yenidən dividend şəklində təqdim edildikdə də əlavə vergiyə cəlb edilmir. Həmçinin AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Kütləvi təklif edilən və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlirləri hüquqi şəxslərə ödəniləcək isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

Xərclər:

- BFB – əqdin məbləğinin 0,05%-i (min. 0,5 və maks. 500 manat);
- İnvestisiya şirkətinin xidmət haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- MDM – depo hesabının açılışı 5 (beş) manat, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir.

5.8.Qiymətli kağızların yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi):

"Troni İnvestisiya Şirkəti" QSC 24.12.2021-ci il tarixli, İŞ-08 nömrəli Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən alınmış müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "Troni İnvestisiya Şirkəti" QSC Emitent və investorlara bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir.

5.9.Qiymətli kağızların təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri:

Kütləvi təklif edilən səhmlərə Anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) aydan çox olmamaq şərtilə davam edəcəkdir. Abunə yazılışı başlanması və başa çatma tarixləri Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş

günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılımış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi elanda qeyd edilən tarixdə başlanılacaqdır. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü davam edəcək. Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir.
Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:
• İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi; • Digər investorların səhmlərinin yerləşdirilməsi. Səhmlərə abunə yazılışı investorlar tərəfindən sifarişin Anderrayterə təqdim etməklə həyata keçirilir.

5.10.Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd: Abunə yazılışı dövründə Anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya prospekti ilə tanış edir, bu barədə Bakı Fond Birjasının (bfb.az), anderrayter qismində çıxış edən Troni İnvestisiya Şirkətinin (troni.az) və emitentin (allallfinance.az) rəsmi internet səhifələrində, habelə mediada elan verir, emissiya şərtlərini onlara izah edir, sifarişlərin verilməsi barədə məlumat verir.

Səhmlərin Emitenti Barədə Tələb Olunan Məlumatlar

6.Emitentin auditorları barədə məlumat:

6.1.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə məlumat:
Şirkət 10.09.2024-cü il tarixində qeydiyyata alındığı üçün son 3 ilin maliyyə hesabatları mövcud deyildir. 2024-cü ilin maliyyə hesabatları şirkətin təsis edildiyi tarixdən ilin sonunadək olan dövrü, 2025-ci ilin maliyyə hesabatları isə tam təqvim ilini əhatə edir. 2024 və 2025-ci ilin maliyyə göstəriciləri isə Nexia Azərbaijan tərəfindən audit edilmişdir.

Maliyyə ili	Auditorun adı	Ünvanı	Audit təşkilatında üzvlüyü barədə məlumat
2024	Nexia Azerbaijan	World Business Centre, 15-ci mərtəbə, S.Rəhimov küçəsi 23, AZ1014, Bakı, nexia.az	Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü
2025	Nexia Azerbaijan	World Business Centre, 15-ci mərtəbə, S.Rəhimov küçəsi 23, AZ1014, Bakı, nexia.az	Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü

6.2.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə məlumat:
Hesabat dövründə Emitentin auditorunun dəyişdirilməsi və ya əvəz edilməsi baş verməmişdir.

7.Seçilmiş maliyyə məlumatı

7.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir: Bu prospektin 2.9-cu bəndində qeyd edilmişdir.

8.Emitent barədə məlumat

8.1.Emitentin tam adı, təşkilati-hüquqi forması: "AllAllFinance" Açıq Səhmdar Cəmiyyəti.
8.2.Emitentin dövlət qeydiyyatının rekvizitləri: VÖEN: 1806806881, 10.09.2024-cü il.
8.3.Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:
8.3.1."AllAllFinance" Məhdud məsuliyyətli Cəmiyyəti, 10.09.2024-ci il tarixində qeydiyyata alınıb;
8.3.2."AllAllFinance" Açıq Səhmdar Cəmiyyəti, 29.04.2026-cı il tarixində çevrilmə formasında təşkilati-hüquqi formasının dəyişdirilmə nəticəsində.
8.4.Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:

8.4.1.Hüquqi ünvanı: AZ1075, Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Molla Cümə küçəsi, 46B

8.4.2. Elektron poçt ünvanı: info@ allallfinance.az

8.4.3.İnternet səhifəsi: allallfinance.az

8.4.4. Telefon: (+99412) 310 52 51

8.5.Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə): Emitentin son üç maliyyə ili mövcud deyildir. Lakin, Emitentin qediyyata alındığı tarixdən (10.09.2024) investisiyaları olmamışdır.

8.6.Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici): Emitentin cari investisiyaları mövcud deyil.

8.7.İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri: İdarəetmə orqanlarının Emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyil.

9.Emitentin biznesinin icmalı

9.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:

"AllAllFinance" ASC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq kommersiya təşkilatı kimi fəaliyyət göstərir. Cəmiyyətin əsas fəaliyyət istiqamətinə tələb hüququnun satın alınması yolu ilə problemli debitor borcların (kredit portfellərinin) əldə edilməsi, həmin borclar üzrə yığım prosesinin həyata keçirilməsi, eləcə də üçüncü tərəflərə (maliyyə-kredit təşkilatlarına və s.) borcların yığılması üzrə peşəkar xidmətlərin göstərilməsi daxildir. Şirkətin əsas fəaliyyətlərinin xarakteri ilə bağlı faktorlar aşağıdakı kimidir:

Bazar və tənzimləyici mühit: Cəmiyyətin fəaliyyəti yerli qanunvericilik, makroiqtisadi şərait və beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələri çərçivəsində tənzimlənir.

Tərəfdaş əlaqələri: Yığım və əməliyyat prosesləri "CİBPAY" MMC, habelə borc münasibətləri "KollektA" ASC və digər tərəfdaşlar vasitəsilə həyata keçirilir.

İnnovasiya və texnologiya: Xidmətlərin göstərilməsi onlayn platformalar və rəqəmsal ödəmə sistemləri üzərindən təşkil olunur

Son iki maliyyə ili ərzində Emitentin satılmış məhsullarının və göstərilmiş xidmətlərin əsas kateqoriyaları üzrə əməliyyat göstəriciləri ayrı-ayrılıqda aşağıdakı kimi olmuşdur:

Göstərilmiş xidmətlər	31 dekabr 2024 (Audit olunmuş)	31 dekabr 2025 (Audit olunmuş)
Alınmış problemli kredit portfeli üzrə faiz gəlirləri	-	10 812 454
Kreditlər üzrə faiz gəlirləri	15 455	181 557
Cərimə və rüsum gəlirləri	-	41 195
Yığım xidmətlərinin göstərilməsindən əldə olunan gəlirlər	-	25 039

9.2.Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:

Son dövrdə Cəmiyyət tərəfindən göstərilən borcların yığılması və debitor borclarının bərpası xidmətlərinin səmərəliliyinin, şəffaflığının və operativliyinin artırılması məqsədilə bir sıra innovativ həllərin hazırlanması üzrə işlər başa çatdırılmış və yekun mərhələyə çatdırılmışdır. Əsas diqqət yığım və borc idarəetməsi proseslərinin rəqəmsallaşdırılmasına, eləcə də borcalanlarla qarşılıqlı əlaqə mexanizmlərinin təkmilləşdirilməsinə yönəldilmişdir. Hazırda satın alınmış problemli kredit portfellərinin və üçüncü tərəflər üçün göstərilən borcların yığılması xidmətlərinin effektiv idarə olunmasını təmin etmək məqsədilə daxili analitik idarəetmə sistemi (CRM/Collection Management System), borcalanların ödənişlərini rahat şəkildə həyata keçirmələri üçün rəqəmsal ödəniş modulları (o cümlədən CibPay və digər ekvayrinq sistemləri ilə inteqrasiya), habelə veb-sayta inteqrasiya olunmuş borc ödənişi və sorğu modulunun təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bununla yanaşı, borcalanların təhlili və ödəniş qabiliyyətinin qiymətləndirilməsi məqsədilə tətbiq olunan Scoring modeli yenilənmiş, daha dəqiq yığım strategiyalarının müəyyən edilməsinə imkan verən mexanizmlər yaradılmış və risklərin

təhlili prosesləri avtomatlaşdırılmışdır. Həyata keçirilən bu yeniliklərin əsas məqsədi borcların yığılması prosesinin daha operativ, şəffaf və səmərəli şəkildə təşkil edilməsini, həmçinin xidmət keyfiyyətinin yüksəldilməsini təmin etməkdir.

9.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:

Emitentin fəaliyyət sahəsi və coğrafi əhatəsi:

Emitent Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə maliyyə və kollektor (borcların yığılması) sektorunda fəaliyyət göstərir. Şirkətin əsas fəaliyyət istiqamətlərinə banklardan və digər maliyyə institutlarından tələb hüquqlarının satın alınması yolu ilə alınmış problemli kredit portfellərinin əldə edilməsi, həmin borclar üzrə yığım prosesinin həyata keçirilməsi, müştərilərə kreditlərin verilməsi və üçüncü tərəflərə debitor borcların yığılması üzrə xidmətlərin göstərilməsi daxildir. Coğrafi əhatə baxımından Emitent tam olaraq Azərbaycan Respublikasının daxili bazarında fəaliyyət göstərir. Şirkətin hüquqi ünvanı Bakı şəhərində yerləşir və xarici ölkələrdə filial və ya nümayəndəlikləri yoxdur.

Rəqabət mühiti:

Emitent Azərbaycanın maliyyə sektorunda problemli borcların idarə olunması, debitor borcların yığılması (kollektor xidmətləri), eləcə də kreditləşmə bazarında fəaliyyət göstərən digər BOKT-lər, kollektor şirkətləri və banklarla rəqabət aparır. Portfellərin satınalma şərtləri, tətbiq edilən faiz dərəcələri, borclulara təklif olunan güzəşt proqramları və yığım xidmətlərinin operativliyi rəqabət mühitinin əsas xüsusiyyətlərini təşkil edir. Şirkətin işçi heyətinin sayı 2025-ci ilin sonuna 196 nəfər təşkil etmişdir. Emitentin bazar payı idarə olunan və satın alınan problemli kredit portfelinin həcmi (31 dekabr 2025-ci il tarixinə qalıq balans dəyəri 6 809 142 manat, il ərzində əldə edilmiş portfel 8 227 676 manat), yığılan pul vəsaitlərinin məbləği (2025-ci il üzrə 11 930 279 manat) və xidmət göstərdiyi kontragentlərin sayı ilə müəyyən edilir.

Ümumi gəlirlərin qruplaşdırılması:

Son bir maliyyə ili ərzində Emitentin faiz gəlirləri aşağıdakı kimi olmuşdur:

Maliyyə ili	**Faiz gəlirləri (Manat)**
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	10 994 011
Fəaliyyətə başlama tarixindən 31 dekabr 2024-ci il tarixinədək	15 455

9.4.Bu Prospektin 9.1, 9.2-ci və 9.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:

Maliyyə sektoru və borcların idarə olunması (kollektor) bazarının fəaliyyəti makroiqtisadi, tənzimləyici, texnoloji və sosial amillərin təsirinə məruz qalır. Emitentin əsas fəaliyyəti banklardan və maliyyə institutlarından tələb hüquqlarının satın alınması (POCI aktivləri) və bu borcların səmərəli yığılmasından ibarət olduğu üçün aşağıdakı tendensiyalar Şirkətin əməliyyatlarına birbaşa təsir göstərir:

Rəqəmsal transformasiya və yığım kanallarının avtomatlaşdırılması: Maliyyə və yığım sektorunda rəqəmsal texnologiyaların, skorinq sistemlərinin və sürətli ödəniş inteqrasiyalarının tətbiqi genişlənir. Şirkət "CibPay" MMC kimi fintex təşkilatı vasitəsilə yığım əməliyyatlarını və kreditləşmə prosesini avtomatlaşdırmış və İT/innovasiya xərclərini artırmışdır (2025-ci ildə 79 413 manat). Rəqəmsal kanalların inkişafı borclularla əlaqənin operativliyini və yığım səmərəliliyini artırır.

Borclulara tətbiq edilən güzəşt proqramları və sosial məsuliyyət: Problemli borcların idarə edilməsində borcluların ödəniş qabiliyyətinə uyğun restrukturizasiya olunması əsas tələblərdəndir. Emitent yığım prosesində borclulara müxtəlif güzəştlər təqdim edir. 2025-ci il ərzində portfel üzrə verilmiş 300 709 manat məbləğində güzəşt (və inzibati xərclərdə əks olunan 308 186 manatlıq güzəştlər) yığım həcmini və müştəri loyallığını artıran əsas amillərdən olmuşdur.

Tənzimləyici tələblərin artması və hüquqi çərçivə: Maliyyə bazarlarında şəffaflığın artırılması və MHBS standartlarına uyğun hesabatlılıq tələbləri sərtləşir. Şirkət əməliyyatlarını MHBS 9 (POCI alətləri) standartlarına uyğunlaşdırmış, məhkəmə-yığım və hüquqi təminat tədbirləri çərçivəsində 924 874 manat hüquqi xidmət xərci çəkmişdir. Bu tələblər əməliyyat xərclərini artırsa da, bazarda

etimadı və hüquqi dayanıqlılığı möhkəmləndirir.

Makroiqtisadi şərtlər və borc portfellərinin keyfiyyəti: İnflyasiya və iqtisadi fəallıq fiziki şəxslərin borc ödəmə qabiliyyətinə birbaşa təsir edir. Ölkədə milli valyutanın sabitliyinin qorunması satın alınan portfellərdən pul daxilolmalarını müsbət dəstəkləyir. 2025-ci ildə 8 227 676 manatlıq yeni portfelin əldə edilməsi qarşılığında 11 930 279 manat məbləğində nağd yığımın həyata keçirilməsi və portfel üzrə 10 812 454 manat faiz gəlirinin formalaşması əlverişli əməliyyat mühitinin göstəricisidir.

Bankların problemli aktivləri təmizləmə tendensiyası: Azərbaycanın bank və BOKT sektorunda balansda olan portfel keyfiyyətini artırmaq üçün problemli kreditlərin kənar ixtisaslaşmış təşkilatlara satılması (tələb hüquqlarının güzəşt edilməsi) tendensiyası sürətlənir. Bu meyil Emitent üçün daha geniş həcmdə portfel əldə etmək və biznes miqyasını böyütmək imkanı yaradır.

Kibertəhlükəsizlik və fərdi məlumatların qorunması: Böyük həcmdə fərdi borc məlumatları ilə işləyən təşkilatlar üçün kibertəhlükəsizlik riskləri böyük önəm kəsb edir. Emitent borcluların məlumatlarının mühafizəsi və İT sistemlərinin təhlükəsizliyi üçün müvafiq texnoloji standartları tətbiq edir.

9.5.Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:
Emitentin patent və lisenziyalardan, sənaye, koammersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı mövcud deyil.

9.6.Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:
Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

10.Digər təşkilatlarda iştirak

10.1.Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:
Emitentin digər hüquqi şəxslərdə iştirakı yoxdur.

10.2.Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer: Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

11.Emitentin əsas vəsaitləri

11.1.Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri:
Emitentin 2025-ci ilin sonuna icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaiti yoxdur.

11.2.Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik) bağlı olan amillərin təsviri: Ətraf mühitlə bağlı neqativ hallar mövcud deyil.

12.Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı

12.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri:

Açıqlama (Azərbaycan manatı ilə)	Fəaliyyətə başlama tarixindən 31.12.2024 (Audit olunmuş)	31.12.2025 (Audit olunmuş)
Faiz gəlirləri	15 455	10 994 011
Digər gəlirlər	-	66 234
Cəmi gəlirlər	**15 455**	**11 060 245**
Gözlənilən kredit zərəri	-	(142 877)
Ümumi və inzibati xərclər	(45 973)	(3 690 990)
Faiz xərcləri	-	(149 862)
Vergidən əvvəlki mənfəət/(zərər)	**(30 518)**	**7 076 516**
Mənfəət vergisi xərci	-	(1 483 135)
İl üzrə cəmi məcmu gəlir/(zərər)	**(30 518)**	**5 593 381**

12.2.Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmin dəyişikliklər və onlar barədə məlumat:

2024-cü və 2025-ci illər üzrə maliyyə göstəriciləri arasında müşahidə olunan əhəmiyyətli fərq əsasən Cəmiyyətin fəaliyyətə başlama tarixi ilə əlaqədardır. Belə ki, Cəmiyyət 2024-cü ilin oktyabr ayında təsis edilmiş və həmin il ərzində fəaliyyətinin ilkin təşkili və formalaşdırılması mərhələsində olmuşdur. Bu səbəbdən 2024-cü il üzrə əməliyyat fəaliyyətinin həcmi məhdud olmuşdur. Əsas fəaliyyətin və əməliyyatların 2025-ci ildən etibarən genişlənməsi nəticəsində həmin il üzrə maliyyə göstəricilərində əhəmiyyətli artım müşahidə edilmişdir. 2024-cü illə müqayisədə, 2025-ci ildə şirkətin yalnız təsis olunma tarixi və fəaliyyətinin ilkin mərhələsi ilə əlaqədar yaranmış fərqlər bir neçə göstəricidə özünü göstərmişdir. Belə ki, cəmi gəlirlər 31.12.2024-cü il tarixinə 15 min manatdan 31.12.2025-ci il tarixinə 11 milyon manata, cəmi aktivlər 15 min manatdan 13 milyon manata, cəmi öhdəliklər 351 min manatdan 7 milyon manata, cəmi kapital isə mənfi 30 min manatdan 5,7 milyon manata qədər artım göstərmişdir. 2026-cı ilin əvvəlindən 05.10.2026-cı il tarixinədək şirkətin əməliyyat fəaliyyətində əhəmiyyətli dəyişiklik baş verməmişdir

12.3.Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:

Emitentin gəlirləri problemli kredit portfellərinin alışı və borcların yığılması xidmətlərindən formalaşır. Əməliyyat gəlirlərinə təsir edən əsas amillər aşağıdakılardır:

• Portfelin həcmi və alış qiyməti: Portfellərin əlverişli diskontla alınması və effektiv faiz dərəcəsinin düzgün tətbiqi gəlirliliyi birbaşa müəyyən edir;

• Yığım effektivliyi və güzəştlər: Məhkəmə və dəbdənkənar yığımların səmərəliliyi, eləcə də borclulara olunan güzəştlərin düzgün idarə edilməsi gəlirə təsir edir;

• Xidmət tələbatı: Bank və maliyyə institutlarına göstərilən borc yığımı xidmətlərinin həcmi gəlirləri artırır;

• Xərclərin idarə edilməsi: Əməkhaqqı, hüquq, İT və inzibati xərclərin optimallaşdırılması xalis mənfəətə bilavasitə təsir göstərir;

• Makroiqtisadi mühit: Əhalinin ödəniş qabiliyyəti və iqtisadi vəziyyət borcların qaytarılma faizini şərtləndirir;

• Hüquqi çərçivə: Qanunvericilikdə problemlı borcların yığılması ilə bağlı dəyişikliklər əməliyyat xərclərinə və gəlirə təsir edə bilər.

Gəlirlərin əməliyyat gəlirindən nə qədər asılı olduğunu göstərən amillərə aşağıdakılar daxildir:

• Əməliyyat gəlirinin gəlirə bölünməsi kimi hesablanan əməliyyat marjası gəlirin əməliyyat gəlirinə çevrilən faizini göstərir. Daha yüksək əməliyyat marjası gəlirin daha böyük hissəsinin əməliyyat gəlirinə aid olduğunu göstərir;

• Mənfəət marjasının daha yüksək dərəcəsi şirkətin əməliyyat gəlirinin gəlirdəki dəyişikliklərə daha həssas olması deməkdir.

12.4.Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri:

Gəlirlərdəki illər üzrə artım və azalma real biznes aktivliyinin artıb-azalması ilə bağlıdır, lakin əməliyyat xərclərinin yüksək olması səbəbindən hələ də xalis mənfəət sabitləşməyib. Emissiya vasitəsilə cəlb olunacaq vəsait bu gəlir artımını mənfəətə çevirmək üçün infrastrukturun qurulmasına xidmət edəcəkdir.

12.5.İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat:

İqtisadi daxili və xarici mühit amilləri Emitentin fəaliyyətinə və əməliyyat nəticələrinə birbaşa təsir göstərir. Maliyyə-bank sektorunda vaxtı keçmiş borcların həcminin dəyişməsi və iqtisadi dinamika problemli kredit portfellərinin alışı bazarının həcmini müəyyən edir. Ümumi daxili məhsulun (ÜDM) artması və əhalinin real gəlirlərinin yüksəlməsi borcalanların öhdəliklərini yerinə yetirmək imkanlarını artıraraq borcların yığılması prosesinin effektivliyinə müsbət təsir göstərir.

İnflyasiya təzyiqləri borcalanların alıcılıq qabiliyyətini azaldaraq borcların ödənilməsi müddətinin

uzanmasına səbəb ola bilər. Eyni zamanda, Mərkəzi Bankın həyata keçirdiyi monetar siyasət və uçot dərəcəsində baş verən dəyişikliklər cəlb edilən borc vəsaitlərinin faiz xərclərinə birbaşa təsir göstərir.Vergi qanunvericiliyində edilən dəyişikliklər Emitentin əməliyyat xərclərinə və mənfəətliliyinə bilavasitə təsir edir. Bununla yanaşı, borcların yığılması, məhkəmə və icra prosedurlarını tənzimləyən hüquqi bazada baş verən yeniliklər yığım metodlarına və əməliyyat xərclərinə təsir göstərə bilər.

Milli valyutanın sabitliyi əməliyyat risklərini azaldır, əhalinin rəqəmsal ödəniş kanallarından istifadə səviyyəsinin artması isə borcların yığılması prosesinin daha operativ və səmərəli həyata keçirilməsinə şərait yaradır. Problemli borcların alışı bazarında rəqabətin artması portfellərin satış qiymətlərinə və nəticədə Emitentin əməliyyat gəlirliliyinə təsir göstərən əsas amillərdən biridir.

13.Emitentin kapital resursları

13.1.Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli):

Emitentin nizamnamə kapitalına uzun müddətli kapital qoyuluşu etməklə 4 100 manat məbləğində müəyyən edilmişdir; qısa müddətli kapital qoyuluşu baş verməmişdir.

13.2.Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri:

Emitentin 2025-ci ilin sonuna cari hesabda 260 756 manat pul vəsaiti qalığı olmuşdur. Pul vəsaitləri göstərilmiş xidmətlərə əsasən daxil olan vəsaitlərdir.

13.3.Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat:

Hal-hazırda Emitentin borclanma ehtiyacı mövcud deyil. Maliyyələşmə strukturu nizamnamə kapitalının artırılmasından, investisiya qiymətli kağızlarının buraxılışı vasitəsilə borclanmadan və kredit vəsaitlərindən ibarətdir.

13.4.Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat:

Kapital qoyuluşlarına hər hansı məhdudiyyət qoyulmamışdır.

13.5.Bu prospektin 8.7-ci və 11.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat: Hər hansı öhdəlik mövcud deyildir.

14.Tədqiqatlar, lisenziyalar və patentlər

14.1.Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat:

Maliyyə illəri ərzində Emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları olmamışdır.

15.Tendensiyalar barədə məlumat

15.1.Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar:

Emitent maliyyə xidmətləri sektorunda, xüsusilə problemli kredit portfellərinin alışı və yığımı (kollektor fəaliyyəti) sahəsində fəaliyyət göstərir. Cari maliyyə ilinin əvvəlindən etibarən ölkədə makroiqtisadi sabitliyin qorunması, maliyyə-bank sektorunun inkişafı və bank olmayan kredit təşkilatlarının (BOKT) fəaliyyətinin genişlənməsi Emitentin fəaliyyət göstərdiyi bazara müsbət təsir göstərmişdir.

Hesabat dövründə bankların və bank olmayan kredit təşkilatlarının kredit portfellərinin genişlənməsi fonunda vaxtı keçmiş öhdəliklərin idarə olunması üzrə xidmətlərə tələbat sabit qalmışdır. Cari dövr ərzində Emitentin əldə etdiyi problemli kredit portfellərinin həcmi planlaşdırılmış şəkildə artmış, borcların yığılması prosesləri səmərəli təşkil edilmiş və yığım xidmətlərindən gəlirlərin daxil olması davam etmişdir. Fəaliyyət miqyasının genişlənməsi ilə əlaqədar inzibati və əməliyyat xərcləri səmərəli şəkildə idarə edilmişdir. Hesabat dövründə Emitentin fəaliyyətinə mənfi təsir göstərə biləcək hər hansı qeyri-adi hadisə baş verməmiş, bütün cari və kommersiya öhdəlikləri vaxtında və müqavilə şərtlərinə uyğun şəkildə icra

edilmişdir.Ümumilikdə, hesabat dövründə Emitentin fəaliyyətində sabit inkişaf və müsbət artım dinamikası müşahidə olunmuşdur.

15.2.Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:

Ölkədə həyata keçirilən makroiqtisadi sabitləşmə tədbirləri və Azərbaycan Respublikasının Mərkəzi Bankının pul-kredit siyasəti maliyyə-bank sektorunun dayanıqlılığının möhkəmlənməsinə və kreditləşmə həcminin artmasına müsbət təsir göstərmişdir. Mövcud makroiqtisadi sabitlik və əhalinin ödəniş qabiliyyətinin qorunması problemli borcların yığılması prosesinin səmərəliliyini artırmaqla yanaşı, Emitentin maliyyə resursları bazasının güclənməsi üçün əlverişli şərait yaradır.

Hazırda daxili bazarda investor və kreditor aktivliyinə, eləcə də Emitentin əməliyyat fəaliyyətinə əhəmiyyətli mənfi təsir göstərə biləcək hər hansı qeyri-müəyyənlik müşahidə olunmur və mövcud iqtisadi proqnozlar sabitliyini qoruyur. Bu şəraitdə Emitentin cari maliyyə öhdəlikləri əsasən problemli kredit portfellərinin alışı, onların yığılması və göstərilən xidmətlər üzrə həyata keçirilən əsas əməliyyat fəaliyyətindən irəli gəlir və formalaşan nağd pul axınları hesabına idarə olunur.

Emitent öz qısamüddətli və uzunmüddətli öhdəliklərini vaxtında, tam həcmdə və müqavilə şərtlərinə uyğun şəkildə yerinə yetirir ki, bu da onun maliyyə dayanıqlılığını və ödəniş qabiliyyətini göstərir.

16.Gəlir proqnozu

Cəmiyyətin gəlir proqnozu mövcud deyil.

17.Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları

17.1.Emitent 5 ildən az müddətdə mövcud olduğu təqdirdə, hər birinin soyadı, adı, atasının adı və tutduğu vəzifələr göstərilməklə onun təsisçiləri haqqında məlumat:

Təsisçilər haqqında məlumat			
A.S.A	**Rüstəmov Mədəd Nadir oğlu**	**Aydınov Camal İsax oğlu**	**Səlimov Rəşad Mais oğlu**
Nizamnamə kapitalında payı	40%	40%	20%
Vəzifə	Ali İdarəetmə orqanın üzvü	Ali İdarəetmə orqanın üzvü	Ali İdarəetmə orqanın üzvü

17.2.Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:

İcra Orqanı barədə məlumat		
17.2.1.	**A.S.A**	Dünyamaliyev Səbuhi Elxan oğlu
17.2.2.	**Təhsil**	Ali
17.2.3.	**Vəzifə**	Direktor
17.2.8.	**Nizamnamə kapitalında payı**	Yoxdur

17.2.4.Bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında:

Emitentin səhmdarı və direktoru arasında qohumluq əlaqəsi mövcud deyil.

17.2.5.Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat:

Emitentin idarəetmə və və nəzarət orqanlarının son beş il ərzində vəzifə saxtakarlığı ilə bağlı məhkumluğu olmamışdır.

17.2.6.Şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesin başlanması haqqında məlumat:

Hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesin başlanmasında iştirakı olmayıb.

17.2.7.Şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda

maraqların toqquşması barədə məlumat:
Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin Direktorlar şurasına (Müşahidə Şurasına), o olmadıqda, Səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

18.Emitentin idarəedilməsində iştirak edən şəxslərin mükafatlandırılması, imtiyazları və digər kompensasiyaları

18.1.Bu Prospektin 17.2-ci bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunu ilə əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər: Mükafatlar olmayıb və həmin şəxslərə xidmət göstərilməyib.

18.2.Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər:
Kompensasiya və ya yardımlar vermək məqsədilə Emitent və ya Emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər olmayıb.

19.İdarə heyətinin işgüzar praktikası

19.1.Maliyyə ilinin nəticələrinə əsasən bu Prospektin 17.2-ci bəndində göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar:

19.1.1.Cari vəzifədə xidmət etdiyi müddət və səlahiyyət müddətinin başa çatma tarixi:
17.2-ci bənddə göstərilən şəxslər müddətsiz təyin edilmişdir.

19.1.2.Səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat: Xidmət müqavilələri mövcud deyil.

19.2.Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:
Emitentin audit və mükafatlandırma komitələri mövcud deyil.

19.3.Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:
Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

20.Emitentin işçi heyəti

20.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı:
Daimi işçilər: 2024-cü il üzrə - 4 nəfər; 2025-ci il üzrə - 196 nəfər; 05.10.2026-ci il tarixinə - 213 nəfər
Müvəqqəti işçilər: mövcud deyil.

20.2.İşçilərin emitentin nizamnamə kapitalında iştirakı: İşçilərin Emitentin nizamnamə kapitalında iştirakı yoxdur.

20.3.Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat:
Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar mövcud deyil.

21.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar

21.1.Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
Rüstəmov Mədəd Nadir oğlu	Azərbaycan Respublikası	4 ədəd səhm	40%
Aydınov Camal İsax oğlu	Azərbaycan Respublikası	4 ədəd səhm	40%
Səlimov Rəşad Mais oğlu	Azərbaycan Respublikası	2 ədəd səhm	20%

21.2.Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları haqqında məlumat:

Səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

21.3.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:

Emitentdə mühüm iştirak payına malik 3 səhmdar vardır. Rüstəmov Mədəd Nadir oğlu 40 %, Aydınov Camal İsax oğlu 40%, Səlimov Rəşad Mais oğlu isə 20% səhmə malikdir. Cəmiyyətin ümumi yığıncağı vasitəsilə Emitentin idarə olunmasında əsas qərarverici subyektlərdir. Səhmdarların idarəetmə fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Emitentin nizamnaməsinə uyğun şəkildə həyata keçirilir. Qərarların rəsmiləşdirilməsi protokollarla aparılır, şəffaflıq və hüquqi uyğunluq prinsiplərinə əməl olunur. Emitent tərəfindən aşağıdakı tədbirlər vasitəsilə səhmdar nəzarətinin şəffaf və ədalətli aparılması təmin edilir:

Bütün qərarlar sənədləşdirilir və qanuni əsaslarla qəbul olunur;

Maliyyə hesabatları qanunvericiliklə müəyyən edilmiş qaydada təqdim olunur və maliyyə intizamına riayət edilir;

Qərarvermədə maraqların toqquşmasının qarşısının alınması üçün daxili nəzarət mexanizmləri tətbiq olunur. Əgər gələcəkdə əlavə səhmdarlar cəlb olunarsa, onların hüquqlarının bərabər qorunması üçün hüquqi və təşkilati baza mövcuddur.

Beləliklə, Emitentə nəzarət edən səhmdarın fəaliyyəti şəffaf şəkildə həyata keçirilir və bu nəzarətin sui-istifadə hallarına yol verilməməsi üçün hüquqi və təşkilati tədbirlər mövcuddur.

21.4.Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:

Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və Emitentə məlum olan əməliyyatlar barədə məlumat mövcud deyil.

22.Aidiyyəti şəxslərlə əməliyyatlar

22.1.Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə məlumat (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmiş məlumat): Aidiyyəti şəxslər ilə müqavilələr bağlanılmamışdır.

23.Emitentin maliyyə məlumatları

23.1.Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

23.1.1.Maliyyə Vəziyyəti Haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	Fəaliyyətə başlama tarixindən 31.12.2024 (Audit olunmuş)	31.12.2025 (Audit olunmuş)
AKTİVLƏR		
Pul vəsaitləri və onların ekvivalentləri	3 890	260 756
Müştərilərə verilmiş kreditlər və avanslar	194 780	35 719
Alınmış problemli kredit portfeli	-	6 809 142
Verilmiş borclar	110 000	3 360 693
Digər debitor borcları	12 220	359 849
Əmlak, tikili və avadanlıqlar	-	448 297
Qeyri-maddi aktivlər	-	9 486
İstifadə hüquqlu aktivlər	-	1 715 787
Digər aktivlər	-	6 850
CƏMİ AKTİVLƏR	**320 890**	**13 006 579**
ÖHDƏLİKLƏR		
Borc vəsaitləri	200 000	3 166 733
Ticarət və digər kreditor borcları	10 308	686 982
Mənfəət vergisi öhdəliyi	-	151 587
Səhmdarlardan alınmış borclar	141 000	197 753
İcarə öhdəliyi	-	1 751 963
Təxirə salınmış vergi öhdəliyi	-	1 331 548
CƏMİ ÖHDƏLİKLƏR	**351 308**	**7 286 566**
KAPİTAL		
Nizamnamə kapitalı	100	100
Əlavə kapital	-	157 050
Bölüşdürülməmiş mənfəət/(Yığılmış zərər)	(30 518)	5 562 863
CƏMİ KAPİTAL	**(30 418)**	**5 720 013**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL	**320 890**	**13 006 579**

23.1.2.Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabatı

Açıqlama (Azərbaycan manatı ilə)	Fəaliyyətə başlama tarixindən 31.12.2024 (Audit olunmuş)	31.12.2025 (Audit olunmuş)
Faiz gəlirləri	15 455	10 994 011
Digər gəlirlər	-	66 234
Cəmi gəlirlər	**15 455**	**11 060 245**
Gözlənilən kredit zərəri	-	(142 877)
Ümumi və inzibati xərclər	(45 973)	(3 690 990)
Faiz xərcləri	-	(149 862)
Vergidən əvvəlki mənfəət/(zərər)	**(30 518)**	**7 076 516**
Mənfəət vergisi xərci	-	(1 483 135)
İl üzrə cəmi məcmu gəlir/(zərər)	**(30 518)**	**5 593 381**

23.1.3.Kapitalda Dəyişikliklər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət/(Yığılmış zərər)	Əlavə kapital	Cəmi kapital
1 yanvar 2024-cü il tarixinə	-	-	-	-
Nizamnamə kapitalının qoyuluşu	100	-	-	100
Fəaliyyətə başlama tarixindən 31 dekabr 2024-cü il tarixinədək zərər	-	(30 518)	-	(30 518)
31 dekabr 2024-cü il tarixinə	**100**	**(30 518)**	-	**(30 418)**
İl üzrə cəmi məcmu gəlir	-	5 593 381	-	5 593 381
Əvəzsiz verilmiş aktivlər	-	-	157 050	157 050
31 dekabr 2025-ci il tarixinə	**100**	**5 562 863**	**157 050**	**5 720 013**

23.1.4.Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	Fəaliyyətə başlama tarixindən 31.12.2024 (Audit olunmuş)	31.12.2025 (Audit olunmuş)
Əməliyyat fəaliyyəti		
Vergidən əvvəlki mənfəət/(zərər)	(30 518)	7 076 516
Qeyri-nağd düzəlişlər		
Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin köhnəlməsi və amortizasiyası	-	50 123
İstifadə hüquqlu aktivləri üzrə amortizasiya xərcləri	-	117 520
Gözlənilən kredit zərəri	-	142 877
Faiz xərcləri	-	149 862
Dövriyyə vəsaitlərində dəyişikliklər	**(30 518)**	**7 536 898**
Alınmış problemli kredit portfeli	-	(6 952 019)
Müştərilərə verilmiş kreditlər	(194 780)	159 061
Digər debitor borcları	(12 220)	(347 629)
Ticarət və digər kreditor borcları	10 308	676 674
Digər aktivlər	-	(6 850)
	(227 210)	**1 066 135**
Ödənilmiş mənfəət vergisi	-	-
Ödənilmiş faiz xərci	-	(16 829)
Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri	**(227 210)**	**1 049 306**
İnvestisiya fəaliyyəti		
Əmlak, tikili və avadanlıqlar satın alınması	-	(340 316)
Qeyri-maddi aktivlərin satın alınması	-	(10 540)
Verilmiş borclar	(110 000)	(3 250 693)
İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri	**(110 000)**	**(3 601 549)**
Maliyyələşdirmə fəaliyyəti		
Səhmlərin buraxılışı	100	-
Borc vəsaitləri	200 000	2,966,734
Səhmdarlardan alınmış borclardan daxilolmalar	141 000	165 816
Səhmdarlardan alınmış borcların qaytarılması	-	(156 471)
İcarə öhdəliyi üzrə faiz ödənişi	-	(85 626)
İcarə öhdəliyi üzrə əsas məbləğ ödənişi	-	(81 344)
Maliyyələşdirmə fəaliyyətindən xalis pul vəsaitləri	**341 100**	**2 809 109**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma	**3 890**	**256 866**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin əvvəlinə	-	3 890
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin sonuna	**3 890**	**260 756**

23.2.Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit

edilmiş maliyyə hesabatları: Emitent bir ildən çox müddət ərzində fəaliyyət göstərir.

23.3.Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydaların 3 saylı əlavəsinə uyğun olaraq maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir:
Emitent yeni yaradılmış hüquqi şəxs deyildir.

23.4.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:
Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

23.5.Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):
Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı mövcud deyil.

23.6.Aralıq və digər maliyyə məlumatları: Bu prospektin 23.7-ci bəndində qeyd edilmişdir.

23.7.Emitent son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir:

23.7.1.Maliyyə Vəziyyəti Haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2025 (Audit olunmamış)	30.06.2026 (Audit olunmamış)
AKTİVLƏR		
Pul vəsaitləri və onların ekvivalentləri	19 585	197 081
Müştərilərə verilmiş kreditlər və avanslar	35 719	-
Alınmış problemli kredit portfeli	4 132 535	7 546 616
Verilmiş borclar	1 001 975	3 329 137
Digər debitor borcları	163 567	221 488
Əmlak tikili və avadanlıqlar	203 771	438 811
Qeyri-maddi aktivlər	4 311	10 925
İstifadə hüquqlu aktivlər	779 903	1 657 027
Digər aktivlər	3 114	5 750
CƏMİ AKTİVLƏR	**6 344 480**	**13 406 835**
ÖHDƏLİKLƏR		
Borc vəsaitləri	1 439 424	1 213 893
Ticarət və digər kreditor borcları	312 265	683 851
Mənfəət vergisi öhdəliyi	-	75 794
Səhmdarlardan alınmış borclar	141 000	185 000
İcarə öhdəliyi	796 347	1 657 027
Təxirə salınmış vergi öhdəliyi	705 762	1 193 458
CƏMİ ÖHDƏLİKLƏR	**3 394 798**	**5 009 023**
KAPİTAL		
Nizamnamə kapitalı	100	4 100
Əlavə ödənilmiş kapital	157 050	157 050
Bölüşdürülməmiş mənfəət	2 792 532	8 236 662
CƏMİ KAPİTAL	**2 949 682**	**8 397 812**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL	**6 344 480**	**13 406 835**

23.7.2.Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2025 (Audit olunmamış)	30.06.2026 (Audit olunmamış)
Faiz gəlirləri	5 235 243	6 227 338
Digər gəlirlər	31 54	24 191
Cəmi gəlirlər	**5 266 783**	**6 251 529**
Gözlənilən kredit zərəri	(68 036)	(62 527)
Ümumi və inzibati xərclər	(1 604 778)	(2 102 392)
Faiz xərcləri	(65 157)	-63 53
Vergidən əvvəlki mənfəət / (zərər)	**3 528 812**	**4 023 080**
Mənfəət vergisi xərci	(705 762)	(804 616)
İl üzrə cəmi məcmu gəlir / (zərər)	**2 823 050**	**3 218 464**

23.7.3. Kapitalda Dəyişikliklər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	Nizamnamə kapitalı	Əlavə ödənilmiş kapital	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
31 dekabr 2024-cü il tarixinə	**100**	**-**	**(30 518)**	**(30 418)**
Yarımil üzrə cəmi məcmu gəlir (2025)	-	-	2,823,050	2,823,050
Əlavə ödənilmiş kapital	-	157 050	-	157
30 iyun 2025-ci il tarixinə	**100**	**157 050**	**2,792,532**	**2,949,682**
31 dekabr 2025-ci il tarixinə	100	157 050	5 562 863	5 720 013
30 iyun 2026-cı il tarixinə	**4 100**	**157 050**	**8 236 662**	**8 397 812**

23.7.4. Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2025 (Audit olunmamış)	30.06.2026 (Audit olunmamış)
Əməliyyat fəaliyyəti		
Vergidən əvvəlki mənfəət / (zərər)	3 528 812	4 023 080
Qeyri-nağd düzəlişlər:		
Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin amortizasiyası	23 868	25 196
İstifadə hüququ aktivləri üzrə amortizasiya	55 962	58 776
Gözlənilən kredit zərəri	68 036	62 527
Faiz xərcləri	65 157	63 530
Dövriyyə vəsaitlərində dəyişikliklər:	**3 741 835**	**4 233 109**
Alınmış problemli kredit portfeli	(4 227 790)	(3 369 145)
Müştərilərə verilmiş kreditlər	159 061	-
Digər debitor borcları	(163 567)	(167 536)
Ticarət və digər kreditor borcları	312 265	319 248
Digər aktivlər	(3 114)	(3 314)
Ödənilmiş mənfəət vergisi	-	(75 793)
Ödənilmiş faiz xərci	(8 414)	(8 532)
Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri	**(189 724)**	**928 037**
İnvestisiya fəaliyyəti		
Əmlak, tikili və avadanlıqların satın alınması	(226 771)	(131 213)
Qeyri-maddi aktivlərin satın alınması	(5 179)	(4 150)
Verilmiş borclar	(891 975)	31 556
İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri	**(1 123 925)**	**(103 807)**
Maliyyələşdirmə fəaliyyəti		
Səhmlərin buraxılışı	-	-
Borc vəsaitləri	1 239 424	(805 504)
Səhmdarlardan alınmış borclardan daxilolmalar / qaytarılmalar	165 816	-
İcarə öhdəliyi üzrə faiz ödənişi	(38 921)	(41 838)
İcarə öhdəliyi üzrə əsas məbləğ ödənişi	(36 975)	(40 563)
Maliyyələşdirmə fəaliyyətindən xalis pul vəsaitləri	**1 329 344**	**(887 905)**
Pul vəsaitlərinin xalis artması / (azalması)	**15 695**	**(63 675)**
Pul vəsaitləri və ekvivalentləri – ilin əvvəlinə	3 890	260 756
Pul vəsaitləri və ekvivalentləri – dövrün sonuna	**19 585**	**197 081**

23.8.Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir: Bu prospektin 23.7-ci bəndində qeyd edilmişdir.

23.9.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat:

Cəmiyyət 29.04.2026-ci il tarixindən Səhmdar Cəmiyyətə çevrilmişdir və həmin tarixdən Emissiya prospektinin tərtib olunduğu tarixə (05.10.2026) qədər səhmdarlara dividend ödənişi həyata keçirilməmişdir.

23.10.Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):

Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi prosesləri mövcud deyil.

23.11.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:

Maliyyə hesabatlarının dərc edilməsindən emissiya prospektinin tərtib edilməsinədək emitentin maliyyə vəziyyətində heç bir dəyişiklik baş verməmişdir.

24.Emitent haqqında əlavə məlumat

24.1.Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:

Nizamnamə kapitalının ümumi məbləği 4 100 (dörd min yüz) manat həcmindədir və hər biri 410 (dörd yüz on) manat olmaqla, 10 (on) ədəd adi, sənədsiz, adlı səhmdən ibarətdir. Nizamnamə kapitalında imtiyazlı səhmlər mövcud deyil.

• Aydınov Camal İsax oğlu – 1 640 (bir min altı yüz qırx) manat, 4 (dörd) ədəd, adi, adlı sənədsiz səhm.

• Rüstəmov Mədəd Nadir oğlu – 1 640 (bir min altı yüz qırx) manat, 4 (dörd) ədəd, adi, adlı sənədsiz səhm.

• Səlimov Rəşad Mais oğlu – 820 (səkkiz yüz iyirmi) manat, 2 (iki) ədəd, adi, adlı sənədsiz səhm.

Adi səhmlərə təsbit edilmiş hüquqlar:

• Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

• Bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

• Ümumi Yığıncağın çağırılmasını tələb etmək;

• Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;

• Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

• Cəmiyyətin xalis mənfəətindən dividend almaq;

• Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

• Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

24.2.Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:

Emitentin emissiya hesabında geri satın alınmış və uçotu aparılan səhmlər mövcud deyil.

24.3.Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:

Emitentin törəmə müəssisələrinə məxsus Emitentin səhmləri mövcud deyil.

24.4.Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları barədə məlumat:

Emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları mövcud deyil.

24.5.Emitentin səhmlərinə olan opsionlar barədə məlumat: Emitentin opsionları mövcud deyil.

24.6.Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədə məlumat:

2026-cı ildə nizamnamə kapitalı artırılaraq 4 100 (dörd min yüz) manat olmuşdur. Mövcud emissiyadan sonra şirkətin nizamnamə kapitalı 205 000 (iki yüz beş min) manat artırılaraq 209 100 (iki yüz doqquz min yüz) manat manata çatacaqdır.

24.7.Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:

24.7.1.Fəaliyyət və məqsədlərin təsviri:

"AllAllFinance" ASC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq kommersiya təşkilatı kimi fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

24.7.2.İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:

Emitentin Müşahidə Şurası mövcud deyildir.

Emitentin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır.

Səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin icra orqanını yaratmaq və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- İcra orqanının səlahiyyətlərinin müqaviləyə əsasən kənar idarəçiyə vermək;
- Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;
- xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir;
- Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq və fəaliyyətinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
- digər hüquqi şəxslərin kapitalında cəmiyyətin iştirakı barədə qərarlar qəbul etmək.

Direktorun səlahiyyətlərinə aşağıdakılar aid edilir:

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;
- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır;
- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir;
- Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;
- Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır.

24.7.3.Mövcud səhmlərin hər bir növü üzrə məhdudiyyətlərin təsviri:

Mövcud səhmlər ürə məhdudiyyət yoxdur.

24.7.4.Səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası:

Səhmdarların Ümumi Yığıncağı növbəti və növbədənkənar ola bilər. Növbəti Ümumi Yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik Ümumi Yığıncaq). İllik Ümumi Yığıncaq

maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq müşahidə şurası tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir. Cəmiyyətin müşahidə şurası olmadıqda illik Ümumi Yığıncağın çağırılması icra orqanı tərəfindən həyata keçirilir. Ümumi Yığıncağın çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə kütləvi informasiya vasitələri ilə məlumat verilməli, habelə səhmdarlara bu barədə yazılı bildiriş göndərilməlidir. Ümumi Yığıncağın çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

- Cəmiyyətin adı və olduğu yer;
- Ümumi Yığıncağın keçirilmə tarixi, vaxtı və ünvanı;
- Ümumi Yığıncağın gündəliyi
- Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla tanış oluma qaydası.

Növbədənkənar Ümumi Yığıncaq müşahidə şurasının öz təşəbbüsü və ya səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə icra orqanı tərəfindən çağırılır.

Növbədənkənar Ümumi Yığıncağın çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

24.8.Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:
Son 2 il ərzində Emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr mövcud deyil.

Səhmlər Barədə Məlumat

25.Əsas məlumatlar

25.1.Emitentin dövriyyə kapitalı (cari aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat:
Dövriyyə kapitalı 31.12.2025-ci il tarixinə tarixinə 5 720 013 manat təşkil edir. Bu məbləğ cari aktivlərin (13 006 579.00) cari öhdəliklərdən (7 286 566.00) çıxılması nəticəsində hesablanmışdır.

25.2.Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat:
Dövriyyə kapitalının Emitentin cari ehtiyacların üçün kifayət etmədiyi təqdirdə Emitent kredit vəsaitlərinin və.s. formada əlavə vəsaitlərin cəlb edilməsi imkanına malikdir.

25.3.Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat: Mövcud deyil.

25.4.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:
"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.
Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş investisiya qiymətli kağızlarının ticarətə qəbulu, listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə səhmlərin ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Milli Depozit Mərkəzi.
MDM "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

- qiymətli kağızların saxlanması və uçotunun aparılması;

• qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

Anderrayter.

Emitentin yeni buraxılacaq səhmlərinin öhdəlik götürmədən anderraytinqi və yerləşdirilməsi İŞ-08 nömrəli, 24.12.2021-ci il tarixli, müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə Emitentdən xidmət haqqı tutacaqdır. "Troni İnvestisiya Şirkəti" QSC bu emissiyanın Anderrayteri kimi Emitentin bütün satış sifarişlərini abunə yazılışı zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə səhmlərin yerləşdirilməsi xidmətlərini göstərir. Emitentin səhmlərinin anderraytinqi və yerləşdirilməsi prosesində "Troni İnvestisiya Şirkəti" QSC-nin marağı kommersiya xarakterlidir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında Emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar səhmləri depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və Anderrayter isə səhmlər yerləşdirildikcə Emitentdən və investorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

25.5.Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:

Təklifin səbəbləri nizamnamə kapitalının artırılması olduğu nəzərə alaraq, vəsait Cəmiyyətin dövriyyə kapitalının artırılmasına yönəldiləcək.

25.6.Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri:

Dövriyyə kapitalının Emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent kredit vəsaitlərinin və s. formada əlavə vəsaitlərin cəlb edilməsi imkanına malikdir.

25.7.Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:

Səhmlərin yerləşdirilməsindən əldə ediləcək vəsaitlər Emitentin əsas fəaliyyətinin genişləndirilməsinə və daha da inkişafına yönləndiriləcəkdir. Əldə olunan vəsaitlərdən digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya Emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulmamışdır.

26.Təklif edilən səhmlər haqqında məlumat

26.1.Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları: Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yanvar 2016-cı il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

26.2.Səhmlərin növü: adi, adlı, sənədsiz.

26.3.Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə):

Təklif edilən: 500 (beş yüz) ədəd, 410 (dörd yüz on) manat;

Mövcud olan: 10 (on) ədəd, 410 (dörd yüz on) manat.

26.4.Səhmlərin qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün): AZ1001028666.

26.5.Səhmlərlə təsbit olunan hüquqlar:

• Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

• Bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

• Ümumi Yığıncağın çağırılmasını tələb etmək;
• Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
• Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
• Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
• Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq.
• Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

26.6.Səhmlərlə təsbit olunan məhdudiyyətlər: Məhdudiyyət mövcud deyil.

26.7.Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:

Milli Depozit Mərkəzi.

"Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Səhmlərin yerləşdirilməsi prosesində MDM-in əsas vəzifəsi səhmlərin saxlanması və səhm mülkiyyətçilərinin reyestrinin aparılmasıdır. MDM-in fəaliyyəti Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.

Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;
Faktiki ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Telefon: +994 12 538 31 90
E-mail: info@mdm.gov.az

26.8.Dividend siyasəti:

Hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Səhmdar Cəmiyyətin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Səhmdar Cəmiyyəti nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Səhmdar Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Adi səhm üzrə dividend Emitentin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

26.9.Üstünlük hüququ tətbiq edildiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnun tətbiq edilmədiyi barədə qeyd:

Səhmdarlar "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8-ci maddəsinə əsasən, səhmdar cəmiyyətin əlavə səhmlərinin əldə olunmasında üstünlük hüququna malikdirlər. Üstünlük hüququnun həyata keçirilməsi üçün səhmlərin dövlət qeydiyyatına alındığı tarixdən etibarən Emitent tərəfindən 5 (beş) iş günü ərzində sifarişli poçt vasitəsilə və ya elektron üsulla hər bir səhmdara bildiriş göndərilir. Səhmdar bildirişi aldığı gündən etibarən 10 (on) iş günü ərzində öz üstünlük hüququndan istifadə etmək barədə yazılı tələbini cəmiyyətin icra orqanına təqdim edə bilər. Bu müddət ərzində tələb təqdim edilmədikdə, səhmdar həmin hüquqdan imtina etmiş hesab olunur və həmin səhmlər növbəlik qaydasında digər investorlar tərəfindən əldə edilə bilər.

26.10.Səhmlərin geri satın alınma şərtləri (olduqda): Səhmlərin geri satın alınması nəzərdə tutulmayıb.

26.11.Səhmlərin konvertasiyası şərtləri (olduqda): Səhmlərin konvertasiyası nəzərdə tutulmayıb.

26.12.Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:

Səhmdarların növbədənkənar ümumi yığıncağının 02 saylı Protokolu, 03.08.2026-cı il.

26.13.Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):

Səhmlərin alınması üçün heç bir məhdudiyyət mövcud deyil.

26.14.Səhm emissiyası hər hansı bir məcburi qoşulma və ya ayrılma ilə bağlı olduqda bu barədə məlumat:

Səhm emissiyası hər hansı bir məcburi qoşulma və ya ayrılma ilə bağlı deyil.

26.15.Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat:

Keçən və cari maliyyə ili ərzində Emitentin səhmlərinin alınmasına dair məcburi təklif mövcud deyil.

26.16.Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:

Bu hal Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmin Məcəllənin 122.1-ci maddəsinə əsasən, rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur. 122.2-ci maddəyə əsasən, dividendlərin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən 122.1-ci maddəyə uyğun olaraq vergi tutulmuşdursa, həmin gəlirdən bir daha vergi tutulmur və bu gəlir yenidən dividend şəklində təqdim edildikdə də əlavə vergiyə cəlb edilmir. Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər üzrə ödənilən dividend gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

27.Təklif şərtləri

27.1.Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin Anderrayteri 04.12.2021-ci il tarixli, İŞ-08 nömrəli, müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC tərəfindən BFB-də həyata keçiriləcək. Kütləfi təklif edilən səhmlərə Anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) aydan çox olmamaq şərtilə davam edəcəkdir. Abunə yazılışı başlanması və başa çatma tarixləri Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılımış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi elanda qeyd edilən tarixdə başlanılacaqdır. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü davam edəcək. Mövcud səhmdarlar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdirlər.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Səhmlərə abunə yazılışı investorlar tərəfindən sifarişin Anderrayterə təqdim etməklə həyata keçirilir. Yerləşdirmə müddəti ərzində investorlar səhmlərin alınması üçün pul vəsaitlərini "Azər-Türk Bank" ASC-də Emitentin adına açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. Səhmlərin dəyəri pul şəklində ödənilməlidir. MDM səhmlərin dəyəri investorlar tərəfindən ödənilməsi

haqqında məlumatları müvafiq bankdan aldıqdan sonra növbəti gün ərzində səhmləri investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

27.2.Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:

Emissiya prospektinə dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə (həmin dəyişikliklərin qəbul edilməsi barədə qərar, dəyişikliklərin mətni və əsaslandırma əlavə edilməklə) müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində maliyyə bazarlarına nəzarət orqanına təqdim ediləcək. Emissiya prospektində edilmiş dəyişikliklər Dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində Məlumatların Elektron Açıqlanması Sistemində (MEAS) cbar.az/meas, BFB-nin rəsmi internet səhifəsində bfb.az açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

27.3.Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:

Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

27.4.Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri:

Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılması nəzərdə tutulmayıb.

27.5.Səhmlərə abunə yazılışının qaydası:

Hər birinin nominal dəyəri 410 (dörd yüz on) manat olan 500 (beş yüz) ədəd səhmlərin təklifi nəzərdə tutulur. İlk növbədə, Emitentin almaqda üstünlük hüququna malik səhmdarları tərəfindən təqdim edilən sifarişlər təmin olunur. Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin Anderrayteri 04.12.2021-ci il tarixli, İŞ-08 nömrəli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC tərəfindən BFB-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə Anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) aydan çox olmamaq şərtilə davam edəcəkdir. Abunə yazılışı başlanması və başa çatma tarixləri Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılımış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü davam edəcək. Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir.

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi. Səhmlərə abunə yazılışı investorlar tərəfindən sifarişin Anderrayterə təqdim etməklə həyata keçirilir.

Yerləşdirmə müddəti ərzində investorlar səhmlərin alınması üçün pul vəsaitlərini "Azər-Türk Bank" ASC-də Emitentin adına açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. Səhmlərin dəyəri pul şəklində ödənilməlidir. MDM səhmlərin dəyəri investorlar tərəfindən ödənilməsi haqqında məlumatları müvafiq bankdan aldıqdan sonra növbəti gün ərzində səhmləri investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

27.6.Abunə yazılışının minimum və maksimum məbləği: Nəzərdə tutulmayıb.

27.7.Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası:

Abunə yazılışı üçün sifarişlər icra edildikdən sonra onların geri çağırılması tələb edilə bilməz; abunəçilər tərəfindən ödənilmiş artıq məbləğ investorun tələbi ilə Anderrayter tərəfindən 1 (bir) iş günü ərzində geri qaytarılmalıdır.

27.8.Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası:

Səhmlərin yerləşdirilməsi zamanı investorlar tərəfindən eyni qiymət ilə təqdim edilən sifarişlərdə səhmlərə tələbat təklifdən çox olduğu təqdirdə səhmlər investorlar arasında onların sifarişlərində göstərilmiş səhmlərin miqdarına uyğun olaraq mütənasib miqdarda yerləşdirilir.

27.9.Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib-edilmədiyinin şərtləri: Bir şəxs tərəfindən məhdudiyyətsiz sayda sifariş verilə bilər.

27.10.Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası: Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 410 (dörd yüz on) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan "Azər-Türk Bank" ASC-də Emitentin açdığı müvəqqəti cari hesaba (yığım hesabı) köçürülür. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir. Mərkəzi depozitar səhmlərin dəyəri investorlar tərəfindən ödənilməsi haqqında məlumatı bankdan aldıqdan sonra növbəti gün ərzində qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

27.11.Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat:

Əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ mövcud səhmdarlara məxsusdur. Səhmdar ona məxsus səhmlərə mütənasib qaydada yeni buraxılan səhmləri almaq hüququ vardır. Üstünlük hüququ olan səhmdarlar sifarişlərini Anderrayterə təqdim etdikdən sonra kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Mövcud səhm mülkiyyətçiləri	Vətəndaşlıq	Mövcud səhmdarlar öz üstünlük hüququndan istifadə etmədiyi təqdirdə nizamnamə kapitalında payları aşağıdakı qaydada olacaqdır:	Mövcud səhmdar öz üstünlük hüququndan istifadə etdiyi təqdirdə nizamnamə kapitalında payları aşağıdakı qaydada olacaqdır:
Rüstəmov Mədəd Nadir oğlu	Azərbaycanlı	4 ədəd səhm; 0.784313 %	204 ədəd səhm; 40.00 %
Aydınov Camal İsax oğlu	Azərbaycanlı	4 ədəd səhm; 0.784313 %	204 ədəd səhm; 40.00 %
Səlimov Rəşad Mais oğlu	Azərbaycanlı	2 ədəd səhm; 0.392156%	102 ədəd səhm; 20.00 %

27.12.Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:

Mövcud səhmdarlar potensial investorlar kimi çıxış edə bilər.

27.13.Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:

Abunə yazılışı başa çatdıqdan sonra 2 iş günü ərzində Emitent və ya Anderrayter qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini elan edir və abunə yazılmış şəxslərə bu barədə yazılı bildiriş göndərir.

27.14.Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat:

Emitentin mövcud səhmdarları səhmlərin yerləşdirilməsi zamanı üstünlük hüququna malikdir və Mövcud səhmdarlar tərəfindən səhmlərin əldə edilməsi nəzərdə tutulur.

27.15.İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat: Nəzərdə tutulmayıb.

27.16.Yerləşdirmə zamanı bəzi investor qruplarına əvvəlcədən müəyyən olunmuş səhmlərin imtiyazlı alışının təsviri, bu cür imtiyazlı alış üçün ayrılmış səhmlərin faiz nisbəti və belə investor qruplarına daxil olma meyarları: Nəzərdə tutulmayıb.

27.17.Səhmlərin təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə səhmlərin qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat: 410 (dörd yüz on) manat.

27.18.Satış qiymətinin açıqlanma qaydası:

Bir səhmin satış qiyməti 410 (dörd yüz on) manat kimi müəyyən edilib və emissiya prospektində açıqlanıb.

27.19.Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

Vergilər:

Bu hal Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmin Məcəllənin 122.1-ci maddəsinə əsasən, rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur. 122.2-ci maddəyə əsasən, dividendlərin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən 122.1-ci maddəyə uyğun olaraq vergi tutulmuşdursa, həmin gəlirdən bir daha vergi tutulmur və bu gəlir yenidən dividend şəklində təqdim edildikdə də əlavə vergiyə cəlb edilmir. Həmçinin AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Kütləvi təklif edilən və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlirləri hüquqi şəxslərə ödəniləcək isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

Xərclər:

- BFB – əqdin məbləğinin 0,05%-i (min. 0,5 və maks. 500 manat);
- İnvestisiya şirkətinin xidmət haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- MDM – depo hesabının açılışı 5 (beş) manat, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir.

27.20.Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı:

Səhmlər 24.12.2021-ci il tarixli, İŞ-08 nömrəli, müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir. Xidmət haqqı Emitent ilə Anderrayter arasında bağlanılmış müqaviləyə əsasən müəyyənləşdiriləcəkdir.

28.Ticarətə buraxılma və onun tənzimlənməsi

28.1.Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:

Səhmlərin kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra BFB-nin ticarət platformasında həyata keçiriləcəkdir. Səhmlərin listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi" Qaydalarına əsasən həyata keçirilir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş investisiya qiymətli kağızlarının ticarətə qəbulu, listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə səhmlərin ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli

"fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

28.2.Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş investisiya qiymətli kağızlarının ticarətə qəbulu, listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə səhmlərin ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

28.3.Market meyker(lər) barədə məlumat (olduqda):

Səhmlər üzrə marketmeyker nəzərdə tutulmamışdır.

28.4.Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması nəzərdə tutulduğu halda aşağıdakılar qeyd olunmalıdır:

Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması nəzərdə tutulmayıb.

29.Təklif edilən səhmlərin mülkiyyətçiləri haqqında məlumat

Təklif edilən səhmlərin mülkiyyətçiləri mövcud deyil.

30.Emissiya xərci

30.1.Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği.

BFB tərəfindən qiymətli kağızların yerləşdirilməsi üzrə xidmətlərin göstərilməsinə görə Emitent tərəfindən ödənilən xidmət haqqı – səhmlərin məcmu nominal dəyərinin 0.05%-i (minimum 0.5 manat, maksimum 500 manat) – 205 000*0.05%=102.5 manat;

BFB tərəfindən qiymətli kağızların listinqə salınılması üzrə xidmətlərin göstərilməsinə görə xidmət haqqı – illik kapitalizasiyaya əsasən 0.01% (minimum 2000 manat, maksimum 20 000 manat) – 2 000 manat;

BFB tərəfindən səhmlərin ilk dəfə ticarətə qəbula icazə verilməsi üzrə xidmət haqqı – 2 500 manat;
BFB tərəfindən qiymətli kağızların ilk dəfə listinqə salınılması xidmətinin göstərilməsinə görə ilkin listinq haqqı – 5 000 manat;
MDM tərəfindən qiymətli kağızların saxlanması üzrə xidmətlərin göstərilməsinə görə Emitent tərəfindən ödənilən xidmət haqqı – səhmlərin məcmu nominal dəyərinin 0.02%-i (minimum 50 manat, maksimum 5 000 manat) – 50 manat;
MDM tərəfindən qiymətli kağızların mülkiyyətçilərinin reyestrinin aparılması üzrə Emitentlərə xidmətlərin göstərilməsinə görə xidmət haqqı - səhmlərin məcmu nominal dəyərinin 0.02 %-i – (minimum 50 manat, maksimum 5000 manat) – 50 manat;
Emissiya prospektinin qeydiyyata alınması ilə bağlı dövlət rüsumu – 1200 manat.
Səhmlərin yerləşdirilməsinə görə komissiya Emitent ilə Anderrayter arasında bağlanılmış müqaviləyə əsasən müəyyənləşdiriləcəkdir.
Vəsaitin emitentə köçürülməsi zamanı Troni İnvestisiya Şirkətinin agent bankı olan Azər-Türk Bank tərəfindən vəsaitin 0,1%-i məbləğində (minimum 1 manat, maksimum 50 manat) komissiya tutulur. Lakin bu komissiya əlavə hesab fakturada qeyd olunduğu üçün cəlb olunan xalis məbləğə hər hansı təsiri yoxdur.
Cəlb olunacaq vəsaitlərin xalis məbləği 194 097.50 manat təşkil edəcək.

31.Payın azalması

31.1.Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları:

Mövcud səhm mülkiyyətçiləri	Vətəndaşlıq	Mövcud səhmdarlar öz üstünlük hüququndan istifadə etmədiyi təqdirdə nizamnamə kapitalında payları aşağıdakı qaydada olacaqdır:	Mövcud səhmdar öz üstünlük hüququndan istifadə etdiyi təqdirdə nizamnamə kapitalında payları aşağıdakı qaydada olacaqdır:
Rüstəmov Mədəd Nadir oğlu	Azərbaycanlı	4 ədəd səhm; 0.784313 %	204 ədəd səhm; 40.00 %
Aydınov Camal İsax oğlu	Azərbaycanlı	4 ədəd səhm; 0.784313 %	204 ədəd səhm; 40.00 %
Səlimov Rəşad Mais oğlu	Azərbaycanlı	2 ədəd səhm; 0.392156%	102 ədəd səhm; 20.00 %